Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

“2018–2020-Cİ İLLƏRDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA RƏQƏMSAL ÖDƏNİŞLƏRİN GENİŞLƏNDİRİLMƏSİ ÜZRƏ DÖVLƏT PROQRAMI”NIN 3 İLİN YEKUNLARI ƏSASINDA MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ

YEKUN HESABAT

Bakı - 2021

«Biz yeni iqtisadi modelə keçməklə bundan sonra iqtisadiyyatımızı ancaq islahatlar, innovasiyalar, texnologiyalar və qeyri-neft sektoru hesabına inkişaf etdirəcəyik».

İLHAM ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti



“2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Rəqəmsal transformasiya və texnoloji innovasiyalar bir çox maliyyə xidmətinə sürətli, asan və effektiv çıxış əldə etməyə imkan verir. “2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın (bundan sonra – Dövlət Proqramı) strateji məqsədi vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş mühitinin xeyli genişlənməsi, nağd dövriyyənin həcminin minimuma endirilməsi və nəticədə bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsidir. Bu məqsədlə ölkədə rəqəmsal ödəniş xidmətlərinin institusional və hüquqi bazasının gücləndirilməsi, infrastruktur imkanlarının artırılması yolu ilə həmin xidmətlərin çeşidinin, keyfiyyətinin və tətbiq dairəsinin genişləndirilməsi, habelə onlardan istifadənin kütləviləşdirilməsi başlıca strateji prioritetlərdir.

Rəqəmsal ödənişlərin tətbiqinin və istifadəsinin genişləndirilməsi iqtisadi dövriyyələri şəffaflaşdırmaqla, nağd pulla bağlı xərclərin, bank və müəssisələrin əməliyyat xərclərinin azalmasına gətirib çıxaracaq ki, bu da öz növbəsində, vergi bazasının, habelə əhali və müəssisələrin maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsinə, bank sektorunun kreditləşmə və investisiya imkanlarının gücləndirilməsinə və son nəticədə iqtisadi artıma təkan verəcəkdir.

Bu Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”ndə rəqəmsal ödənişlərin genişləndirilməsi ilə bağlı nəzərdə tutulan tədbirlərin icrası və müəyyən olunmuş icra göstəricilərinə nail olmaq məqsədilə hazırlanmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında elektron ödəniş xidmətlərinin inkişaf etdirilməsi və tətbiqinin genişləndirilməsi məqsədilə qərara alıram:

1. “2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Mərkəzi Bankı:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinq və qiymətləndirilməsi Azərbaycan Respublikası Mərkəzi Bankının sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Bakı şəhəri, 26 sentyabr 2018-ci il
№ 508

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

“2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın 3 ilin yekunları üzrə icra vəziyyəti



“2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın 3 ilin yekunları üzrə icra vəziyyəti

3 ilin yekunları üzrə icra vəziyyəti **73%**

≤10% 10%–90% ≥90%

Prioritetlərin icra vəziyyəti			
Əlverişli biznes mühitinin inkişaf etdirilməsi	79%	Yeni rəqəmsal ödəniş texnologiyalarının tətbiqi	89%
Vergi sisteminin effektivliyinin artırılması	97%	Rəqəmsal bankçılığın inkişaf etdirilməsi	88%
Sosial müdafiə sisteminin gücləndirilməsi üçün qeyri-formal məşğulluğun azaldılması istiqamətində tədbirlərin görülməsi	54%	Smart ödəniş vasitələrinin geniş tətbiqi	33%
Bank sektorunun sağlamlaşdırılması tədbirlərinin sürətləndirilməsi	53%	Mövcud elektron ödəniş xidmətlərinin effektivliyinin və təhlükəsizliyinin yüksəldilməsi	67%
Aktiv pul bazarının formalaşdırılması	57%	Regionlarda və ucqar ərazilərdə maliyyə inklüzivliyinin artırılması	63%
Rəqəmsal sahibkarlığın inkişaf etdirilməsi	68%	Rəqəmsal ödənişlərin stimullaşdırılması	100%
Elektron ticarətin inkişaf etdirilməsi	50%	Maliyyə savadlılığının yüksəldilməsi	100%
Ödəniş xidmətləri üzrə hüquqi bazanın təkmilləşdirilməsi	83%	Rəqəmsal ödənişlər haqqında ictimai məlumatlılığın artırılması	100%

E-qaimə ilə rəsmiləşən dövriyyələrin həcminin ümumi dövriyyəyə nisbəti müvafiq dövr ərzində **5,8 faiz artmışdır**



Aksizli məhsulların istehsal dövriyyələri üzrə artım

2017-ci illə 2016-cı ilin müqayisəsi

Alkoqollu içki	+ 22,3 %
Tütün	- 33,4 %

2020-ci illə 2019-cu ilin müqayisəsi

Alkoqollu içki	-1,6 %
Tütün	+ 2 DƏFƏ

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

Sadələşdirilmiş vergi rejimi üzrə vergi ödəyicilərinin illik sayının vergi orqanında qeydiyyata alınan vergi ödəyicilərinin ümumi illik sayına nisbəti **müvafiq dövr ərzində 32,2 faiz azalmışdır**



Vergi Məcəlləsində 01.01.2019-cu ildən qüvvəyə minən dəyişikliklərə uyğun olaraq 01.04.2021-ci il tarixə sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnu itirən və həmin dövr ərzində mənfəət (gəlir) ödəyicisi olmuş vergi ödəyicilərinin sayı – 25126 (Sadələşdirilmiş vergi rejimindən - mənfəət/gəlir vergi rejiminə keçid) olmuşdur

Elektron informasiya sisteminə real vaxt rejimində qoşulması təmin edilən **nəzarət-kassa aparatlarının sayında müvafiq dövr ərzində 25 590 ədəd artım** olmuşdur



İllik vergi daxilolmalarının ÜDM-ə nisbəti üzrə artım 0,3% təşkil etmişdir



Ödənilmiş vergilərin dövriyyədə xüsusi çəkisi müvafiq dövr ərzində 0,4% artım göstərmişdir



Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

Azərbaycan
"Qlobal Rəqabətlilik
Hesabatı"nın reytinqi
üzrə



Azərbaycan
"Doing Business"
hesabatının reytinqi
üzrə



KOBİA-nın yardımçı xidmətləri ilə əhatə olunmuş kiçik və orta biznes subyektləri (məsləhət, brending və s.) **1917 ədəd artmışdır**



Qeydiyyatdan keçmiş əmək müqavilələrinin sayında **3 ildə 25,4% artım** olmuşdur



Nağdsız iqtisadi dövriyyənin ÜDM-ə nisbəti **3 il ərzində yalnız 0.1 bənd artım** göstərə bilmişdir



Bank aktivlərinin ÜDM-ə nisbəti **2 il ərzində 10,3% artmışdır**



Bank sektoru üzrə likvid aktivlərin cəmi aktivlərə nisbəti **2 il ərzində 3.7% artmışdır**



Bank sektoru üzrə ani likvidlik əmsalı **2 il ərzində 1.2 faiz artım** göstərmişdir



İstehlak üzrə qeyri-işlək kreditlərin (NPL) cəmi istehlak portfelə nisbəti **2 ildə 7,7 faiz azalmışdır**



Qeyri-işlək kreditlərin (NPL) cəmi kreditlərə nisbəti **2 il ərzində 3,2 faiz azalmışdır**



Biznes üzrə qeyri-işlək kreditlərin (NPL) cəmi biznes portfelinə nisbəti **2 ildə 3 faiz azalmışdır**



Blumberq ticarət platformasında bağlanmış banklararası pul bazarı əqdlərinin həcmi **2020-ci ildə 2017-ci ilə nisbətən 199,3 milyon AZN** çox olmuşdur



Blumberq ticarət platformasında banklararası pul bazarı əqdlərinin sayı 3.5 dəfə artmışdır



İnternet bankçılığı xidməti göstərən bankların sayının bankların ümumi sayında nisbəti **3 ildə 23% artmışdır**



Mobil bankçılığı xidməti göstərən bankların sayının bankların ümumi sayında nisbəti **3 ildə 10% artmışdır**



İllik nağdsız əməliyyat göstəricilərinin sayı (ATM nağdsız əməliyyatların sayı + Elektron ticarət əməliyyatlarının sayı + nağdsız POS əməliyyatlarının sayı) **3 il ərzində 88,3 milyon ədəd artmışdır**



Nağdsız əməliyyatların sayının ümumi kart əməliyyatlarının sayına nisbəti **3 il ərzində 25% artmışdır**



Nağdsız əməliyyatların həcminin ümumi kart əməliyyatlarının həcminə nisbəti **3 il ərzində 10% artmışdır**



İllik nağdsız əməliyyatların sayının kart sahiblərinin sayına nisbəti **3 il ərzində 11,3 bənd artım göstərmişdir**



POS təmassız nağdsız əməliyyat sayının ümumi POS nağdsız əməliyyat sayına nisbəti **3 il ərzində 36% artmışdır**



Təmassız POS sayının ümumi POS sayına nisbəti **3 il ərzində 30% artmışdır**



Təmassız kart sayının ümumi kart sayına nisbəti **3 il ərzində 33% artmışdır**



Ani ödəniş əməliyyat sisteminin istismara verilməsi və ani ödəniş sistemi üzərindən ən azı iki bank arasında ilk əməliyyatların baş tutması

YOX

2017-ci il

HƏ

2020-ci il



Ani ödəniş sisteminə qoşulan bankların və qeyri-bank təşkilatlarının sayı 21-ə yüksəlmişdir

Rəsmi olaraq audit olunmuş və ya nəzarət orqanı tərəfindən IT təhlükəsizliyi yoxlanılmış kredit təşkilatlarının sayı **38% artmışdır**



Sosial cəhətdən həssas olan əhali qrupları üçün baza bank xidmətləri paketi tətbiq edilmişdir

Kapitalla bağlı requlyativ tələbi pozan bankların sayı **2020-ci ildə 1-ə endirilmişdir**



Yüksək risk üzrə ölçülmüş balans aktivlərinin (100% və daha yuxarı) cəmi risk dərəcəsi üzrə ölçülmüş balans aktivlərə nisbəti **2 il ərzində 18,8% azalmışdır**



Hər 10 min nəfərə düşən bank filial və şöbələrin sayında cüzi azalma baş vermişdir



İnternet bankçılıq üzrə aparılan əməliyyatların həcmində **3 il ərzində 75,9 milyard AZN artım** olmuşdur



Mobil bankçılıq üzrə aparılan əməliyyatların həcmində **3 il üzrə 1,3 milyard AZN-dən çox artım** olmuşdur



Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

Rəqəmsal ödənişlər üzrə təlimlərin əhatə etdiyi müxtəlif kateqoriyalardan olan insanların sayı **1 il ərzində 542 nəfər artmışdır**



Maliyyə məhsul və xidmətlərinin məlumat axtarış sistemi (infobank.az) ziyarətçilərinin sayı **2020-ci ildə 29107 nəfərə çatmışdır**



Vahid smart tələbə kartları ilə təmin olunmuş tələbələrin sayının ümumi tələbələrin sayında nisbəti 2020/2021-ci ildə **58%-ə çatmışdır**



2020-ci ilin sentyabr ayının göstəricilərinə əsasən **Bakı kart sahiblərinin sayı 1044 nəfərə və əməliyyatların sayı 9162-ə çatmışdır**



POS-terminallar vasitəsilə həyata keçirilən əməliyyatların məbləğində **3 il ərzində 2,1 milyard AZN artım** olmuşdur



İstehlak xərclərində POS terminallar vasitəsilə aparılan nağdsız əməliyyatların payı **3 il ərzində 2,8% artmışdır**



Elektron imza sertifikatı verilmiş fiziki (vətəndaş) şəxslərin ümumi sayı



Elektron imza sertifikatı verilmiş hüquqi şəxslərin ümumi sayı



Elektron imza sertifikatı verilmiş sahibkarların ümumi sayı



Elektron imza sertifikatı verilmiş dövlət qurumlarının ümumi sayı



Fiziki şəxslər üzrə 3 illik ödəniş xərci

18 AZN

Dövlət qurumları üzrə 3 illik ödəniş xərci

58 AZN

Elektron imzanın istifadəsi üçün illik ödəniş xərclərində dəyişiklik baş verməmişdir

Vətəndaşlar üzrə 3 illik ödəniş xərci

36 AZN

Hüquqi şəxslər üzrə 3 illik ödəniş xərci

72 AZN

Avtobuslarda nağdsız ödənişlərin cəmi həcmində artım olmuşdur

2,7 MLN AZN

2015-ci il üzrə

41,9 MLN AZN

2020-ci il üzrə

Nağdsız ödəniş qəbul edən avtobusların illik sayının Bakı nəqliyyat parkındakı avtobusların ümumi sayına nisbəti artmışdır

23%

450/1950

2016-ci il üzrə

48%

1008/2100

2020-ci il üzrə

http://ereforms.gov.az

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

/iqtisadiislahat